Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir
Heydər ƏLİYEV

GÖMRÜK XƏBƏRLƏRİ

25 DEKABR 2020-ci il
№ 30 (1186)

Qəzet 1995-ci il iyunun 30-dan çıxır

CUSTOMS NEWS | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin orqanı | ВЕСТНИК ТАМОЖНИ

Prezident İlham Əliyev xalqımızı milli hədəflərə doğru apardı və tarixi Zəfəri təmin etdi

Tarixboyu gələcək hədəfləri özündə ehtiva edən, mütərəqqi ideyalar ətrafında sıx birləşməyi bacaran xalqlar qarşıya qoyduqları məqsədlərə doğru daha inamla irəliləyib və uğurlu nəticələr əldə ediblər. Lakin hansısa ideyanın mütərəqqi mahiyyəti özlüyündə hələ onun uğuruna təminat vermir: perspektiv hədəflərlə bağlı ideyalar o vaxt həyati və cəlbedici təsir bağışlayır ki, onun reallaşdırılması mexanizmləri barədə aydın təsəvvürlər mövcud olsun.

Bu cür yetkin baxışın olması xalqın mandatı əsasında ölkəyə rəhbərlik missiyasını üzərinə götürmüş liderlərin idarəçilik keyfiyyətlərindən və gələcəklə bağlı optimal qərarlar qəbul etmək məharətindən asılıdır. Ötən əsrdə xalqımızın yetirdiyi nadir şəxsiyyətlərdən olan ulu öndər Heydər Əliyev də müstəqil Azərbaycanın davamlı inkişaf konsepsiyasını irəli sürməklə yanaşı, bu strateji kursu zamanın diktə etdiyi yeni şərtlər müqabilində davam etdirməyə qadir, xalqını, dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı yetişdirib.

2003-cü ilin prezident seçkilərindən ötən 17 il müddətində Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz siyasi lider olduğunu təsdiqləyib, yüksək idarəçilik və liderlik keyfiyyətləri ilə ictimai inamı doğruldub. Dövlət başçısının idarəçilik fəaliyyətinin üstün cəhəti məhz bundan ibarətdir ki, o, mövcud gerçəklikləri obyektiv şəkildə qiymətləndirməyi, milli maraqlar naminə cəsarətli addımlar atmağı, yaranmış ekstremal şəraitdə optimal qərarlar qəbul etməyi uğurla bacarır.

Prezident İlham Əliyev ulu öndərin xaos və anarxiyadan qurtardığı respublikamızın "Güclü dövlət - müstəqil siyasət" konsepti əsasında inkişafını təmin edib. Ötən illərdəki fəaliyyəti dövlət başçısının verdiyi bütün vədlərin əməli fəaliyyətə və praqmatizmə söykəndiyini, respublikanın gerçək potensialı ilə uzlaşdığını tamamilə təsdiqləyib. Azərbaycan Prezidentinin əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu ictimai həyatın bütün sahələrində böyük uğurlara zəmin yaradıb, hər bir vətəndaşın həyatında nəzərəçarpacaq irəliləyişlərə səbəb olub.

"Mən hər bir azərbaycanlının prezidenti olacağam" - deyən dövlət başçısı çoxşaxəli fəaliyyəti ilə bu nəcib niyyətini bütünlüklə doğruldub, sistemli və düzgün koordinasiya olunmuş fəaliyyəti ilə xalq qarşısında verdiyi vədlərə sadiqliyini sübut edib. Praqmatizm, səmimilik, siyasi iradə və qətiyyətlilik, məqsədyönlülük, mütərəqqi islahatlara meyillilik, öz siyasətini reallaşdırarkən hər bir fərdin, qrupun, ümumilikdə, toplumun maraqlarını nəzərə almaq qabiliyyəti kimi mühüm keyfiyyətlər Prezident İlham Əliyevin qətiyyətli siyasi lider obrazını şərtləndirən mühüm məqamlar sırasında vurğulanmalıdır. Azərbaycan Prezidentinin ötən dövr ərzində vahid sistem halına saldığı milli inkişaf modeli həm də onun yüksək idarəçilik qabiliyyətinin və mükəmməl iş təcrübəsinin əyani təzahürü kimi diqqəti çəkir.

Əsl siyasətçi bəzən hətta mümkün görünməyəni reallaşdırmaq qabiliyyəti ilə seçilir. Vəd vermək asandır, lakin onu reallaşdırmamaq ən cəlbedici ideyaları da insanların gözündən salmaq, onları rüh düşkünlüyünə düçar etmək deməkdir. Bu mənada Prezident İlham Əliyev həm də pafosdan, populizmdən uzaq, praqmatik və realist düşüncəli liderdir. Dövlət başçısının 2003-cü ilin prezident seçkiləri ərəfəsində verdiyi elə bir vəd yoxdur ki, ötən 17 ildə reallaşmamış qalsın. Əksinə, bu müddətdə həyata keçirilən islahatların - real miqyasına, əhəmiyyətinə görə ən azından onilliklər ərzində reallaşdırılması mümkündür.

Son aylara qədər obyektiv səbəblərdən həlli uzanan yeganə ümummilli xarakterli problem Ermənistan-Azərbaycan münaqişəsi və işğal faktının davam etməsi idisə, son 3 ayda bu problem də tamamilə aradan qaldırıldı. 30 ilə yaxın müddətdə davam edən münaqişəyə cəmi 44 gün ərzində son qoymağı bacaran, müzəffər Ordumuzun qazandığı strateji əhəmiyyətli hərbi qələbələrlə təcavüzkar Ermənistanı diz çökdürən, təslimçiliyə məhkum edən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ən yeni tariximizə Zəfər Sərkərdəsi kimi möhürünü vurdu.

Əgər 1993-2003-cü illərdə dövlət müstəqilliyinin daxili və xarici təhdidlərdən qorunub saxlanılması, iqtisadiyyatın dirçəldilməsi, ölkəmizin beynəlxalq arenada tanıdılması praktiki məqsədlər idisə, son 17 ildə obyektiv həyat reallıqları yeni hədəflər müəyyənləşdirib. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycanın bugünkü reallıqları bir daha müstəqilliyimizin üstünlüklərini göstərir. Tarixdə Azərbaycan heç vaxt bu qədər güclü olmamışdır. Bunun başlıca səbəbi müstəqil olmağımızdır. Müstəqillik ən böyük sərvətdir. Hər bir vətəndaş müstəqilliyi qorumalıdır, öz işi ilə müstəqilliyimizə töhfə verməlidir. Elə etməliyik ki, bundan sonra Azərbaycan daim inkişaf yolu ilə getsin".

"Biz xalqın xidmətçisiyik" - deyən Azərbaycan Prezidenti ötən 17 ildə cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışmaqla, hər bir fərdin marağına cavab verən çevik və qətiyyətli qərarlar qəbul edib. Azərbaycanın siyasi, sosial-iqtisadi, mədəni-humanitar sahələrdə əldə etdiyi yüksək nəticələrin möhkəm təməl üzərində formalaşmış ictimai-siyasi sabitlik amili ilə şərtləndiyini, həmrəyliyə və vətəndaş sülhünə əsaslandığını xüsusi vurğulamağa ehtiyac yoxdur. Bu gün respublikamızda mövcud olan daxili sabitlik, əmin-amanlıq, milli barışıq mühiti demokratik inkişafın, qanunçuluğa və hüquq qaydalarına, ədalət meyarlarına ciddi şəkildə riayət olunmasının, habelə sürətli iqtisadi tərəqqinin başlıca təminatlarından biridir.

Müasir dövrdə hər bir dövlətin gücü və qüdrəti "insan meyarı", yəni həyat keyfiyyətinin, şəxsiyyətin dövlət tərəfindən təmin olunan vəziyyətinin önə çəkilməsi ilə ölçülür. Şəxsiyyət azadlığı, insanların maddi rifah səviyyəsi, hər bir fərdin özünü cəmiyyətdə təsdiqetmə imkanı - "insan meyarının" bu və digər elementləri onu dövlətin inkişafının qiymətləndirilməsinin əsas meyarlarına çevirir. Bu mənada əminliklə demək olar ki, tarixin heç bir mərhələsində Azərbaycan cəmiyyəti son illərdəki kimi sürətli dəyişikliklərə uğramayəb, insan amili belə aktual, öncül məsələ kimi gündəmə çıxmayıb.

Dünya təcrübəsi göstərir ki, təbii sərvətlərin zənginliyi bəzi hallarda dövlətlərə və xalqlara rifah, səadət və inkişaf deyil, əksinə, böyük faciələr, ağlasığmaz problemlər gətirir. Neftdən səmərəsiz istifadə nəticəsində bir çox ölkəni acınacaqlı vəziyyətə salmış "Holland sindromu" kimi arzuolunmaz presedent mövcuddur. Azərbaycan isə təbii sərvətlərindən maksimum səmərəli və məqsədyönlü şəkildə istifadə etməklə, ilk növbədə, çoxşaxəli iqtisadi inkişafa nail olub, eləcə də əhalinin sosial rifah halının yüksəldilməsi istiqamətində uğurlu nəticələr qazanıb. "Neft bizim üçün məqsəd deyil, iqtisadiyyatı inkişaf etdirmək üçün vasitədir" - deyən dövlət başçısı İlham Əliyevin yeritdiyi məqsədyönlü strategiya nəticəsində 2021-ci ilin dövlət büdcəsində qeyri-neft sektoru 54 faizə yüksələcək. Pandemiya şəraitində qeyri-neft sektorundakı artım hökumətin fəaliyyətinin yüksək səmərəlilik əmsalı kimi xüsusi vurğulanmalıdır.

Dünyanın koronavirus pandemiyasından (COVID-19) ciddi ziyan çəkdiyi, hətta inkişaf etmiş ölkələrin bu qlobal bəladan sarsıldığı bir zamanda Azərbaycan pandemiyaya qarşı mübarizədə mütərəqqi model ortaya qoydu. Son 9 ayda mühüm dövlət proqramlarının işlənib hazırlanması və qəbulu sosial təcrid tədbirləri nəticəsində iş yerlərini müvəqqəti itirmiş vətəndaşlara və sahibkarlıq subyektlərinə ciddi dəstək olub. Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli sərəncamı əsasında pandemiyanın iqtisadiyyata, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədi ilə dəyəri 2,5 milyard manata çatan sosial-iqtisadi dəstək paketinin qəbulu cəmiyyətdə ciddi dəstək və razılıqla qarşılanıb. Pandemiya dövründə mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri üçün ciddi güzəştlərin nəzərdə tutulması iş adamlarına dəyən zərərin kompensasiya edilməsi baxımından olduqca əhəmiyyətlidir.

Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən 300 mindən çox insanın əməkhaqlarının əhəmiyyətli hissəsinin dövlət tərəfindən dəstəklənməsi, 300 minə yaxın mikro sahibkarın, ümumilikdə, 600 minə yaxın insanın dövlətdən maddi yardım alması ölkə rəhbərinin daim xalqın yanında olduğunun əyani təsdiqidir.

davamı 3-cü səh.

Biz işğaldan azad olunmuş bütün şəhər və qəsəbələrimizi, kəndlərimizi bərpa edəcəyik

Dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar.

Qubadlıya gedən yolda avtomobili özü idarə edən Prezident İlham Əliyev bildirdi ki, Cəbrayıl rayonunun ərazisindəyik. Azad edilmiş torpaqlardayıq. Sağ tərəfdə ermənilər tərəfindən dağıdılmış kəndlərimizdir. Gedirik Qubadlı rayonuna.

Dağıdılmış üzüm bağları. Bütün kəndlər dağıdılıb. Yolun sol və sağ tərəflərində olan dirəklər torpaqlar işğaldan azad olunandan sonra qısa müddət ərzində qoyulmuşdur.

Bütün kəndlər dağıdılıb. Düşmən bu cinayətlərə görə cavab verəcək. Bütün kəndlərimiz, tarixi abidələrimiz, dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Bütün dünya bunu görməlidir.

Sovet vaxtından qalan abidə. İkinci Dünya müharibəsinə həsr edilmiş abidədir. Onu da dağıdıblar.

Növbəti dağıdılmış kənd. Göyərçin Veysəlli kəndi. Erməni faşistlər tərəfindən dağıdılıb. Heç İkinci Dünya müharibəsi zamanı faşistlər belə vəhşilik törətməyib. Görün, biz hansı vəhşi düşmənlə üz-üzə idik, biz hansı şər qüvvələri məğlub etdik?! Bölgəmizi, Qafqazı faşistlərdən azad etdik. Bütün bu kəndləri bərpa edəcəyik. Ancaq, ilk növbədə, bütün kəndlər, o dağıntılar sənədləşdiriləcək, uçota alınacaq.

Zəngilan rayonunun ərazisindən keçirik.

Babaylı kəndi. Bu da dağıdılıb.

Bir dənə də salamat bina yoxdur. Baxın, bütün binalar dağıdılıb. Köhnə qəbiristanlıq.

Zəngilan rayonunun gözəl mənzərəsi, səfalı məkan. Hamısını bərpa edəcəyik. Bu da Üçüncü Ağalı kəndi. Görünür burada ermənilər yaşayıblar. Amma görün nə gündə yaşayıblar. Mən deyəndə ki, işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, budur bunun sübutu. Bizim kəndimizə gəliblər, kəndimizin böyük hissəsini dağıdıblar.

Ermənilərin zəbt etdikləri evlərimiz. İndi Üçüncü Ağalı kəndinin sakinləri yəqin ki, tanıyar bu ev kimindir. Gələsən, başqasının torpağını zəbt edəsən, insanları evsiz-eşiksiz qoyasan, onların evində yaşayasan, xarabalığa çevirəsən, sonra da deyəsən ki, bu, qədim erməni torpağıdır. Saxtakarlar, oğrular, yalançılar, vəhşilər bizim torpaqlarımızı 30 ilə yaxın müddət ərzində işğal altında saxlayıblar. Bütün bu videosənədlər hüquqi müstəvidə bizim təzminat davamız üçün əşyayi-dəlil olacaq.

Birinci Ağalı kəndi. Bura da dağıdılıb. Amma bəzi evlər qalıb. Ermənilər bizim evlərimizdə yaşayıblar. Bundan sonra özümüz yaşayacağıq öz evlərimizdə. Onlar da getsinlər öz vətənlərində yaşasınlar.

Seləli kəndi. Bu kənd də dağıdılıb. Görün nə günə qoyublar. Mən hələ müharibədən əvvəl deyirdim ki, bizim bütün kəndlərimiz, şəhərlərimiz talan edilib. Ermənilər dam örtüklərini, pəncərə çərçivələrini, hər şeyi aparıblar. Açıq-aşkar oğurluq ediblər, bizim torpaqlarımızı istismar ediblər.

Evin yarısını söküb, o biri tərəfdə yaşayıb. Baxın, nə günə qoyublar. Talançılar!

Vəhşi düşmən keçib bu torpaqlardan, dağıdıb ki, heç vaxt Azərbaycan əhalisi buraya qayıtmasın. İnşallah, hamımız qayıdacağıq. Hər şey dağıdılıb.

Hərbi hissələr tikiblər ki, torpaqlarımızı əbədi işğal altında saxlasınlar, amma rədd etdik onları, qovduq torpaqlarımızdan. Torpaqların sahibləri qayıdır.

Baxın, ağacları necə qırıblar. Baxın, vəhşi düşmən neyləyib, bütün ağacları kəsib. Zəngilanın çox zəngin təbiəti var, nadir meşələri var. Çinar ağacları. Baxın, neyləyib düşmən. Baxsın bütün dünya, ermənipərəst qüvvələr bu günə qədər kimi müdafiə edirlər? Bizə qarşı qətnamələr qəbul edən ölkələr baxsınlar, gözlərini açsınlar. Riyakar siyasətçilər açın gözlərinizi, baxın. Sizin parlamentləriniz qətnamələr qəbul edib. Bizim üçün o qətnamələrin heç bir əhəmiyyəti yoxdur, bir kağız parçasıdır. Amma iş ondadır ki, bizə qarşı yenə əsassız ittihamlar irəli sürülür.

davamı 2-ci səh.

Biz işğaldan azad olunmuş bütün şəhər və qəsəbələrimizi, kəndlərimizi bərpa edəcəyik

əvvəli 1-ci səh.

Fransa parlamentinin deputatları, Belçika, Hollandiya parlamentlərinin deputatları, baxın, sizin sevimli ermənilər nələr ediblər bu torpaqlarda? Açın xəritəyə baxın, ensiklopediyaya baxın, görün Zəngilan rayonu, Qubadlı rayonu hansı ölkənin tərkib hissəsidir. Qətnamələr qəbul edirsiniz. Başınıza dəysin bu qətnamələr. Azərbaycanı ittiham edirlər.

Qubadlının Xanlıq kəndi. Xanlıq kəndi uğrunda şiddətli döyüşlər gedirdi. Ermənilər bizim bu tarixi, qədim kəndimizə eybəcər ad veriblər. Xanlıq kəndi Qubadlı rayonunun ərazisində yerləşir. Biz indi Qubadlı rayonunun ərazisindəyik. Ermənilər Xanlıq kəndində özləri üçün hərbi istehkam, hərbi baza qurmuşdular. Xanlıq kəndində qanunsuz məskunlaşma aparılmışdı. Xaricdən gətirilən ermənilər burada qanunsuz yollarla yerləşdirilmişdilər. Bu da hərbi cinayət sayılır. Cenevrə konvensiyalarına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş olur. Baxın, xaricdən gələn ermənilər üçün xaricdə yaşayan ermənilərin pulu ilə Xanlıqda qəsəbə salınıb.

Kənd təsərrüfatı texnikası. XX əsrin 50-ci illərində istehsal olunub. Xaricdə yaşayan ermənilər cinayət törədiblər. Xaricdən erməniləri gətirib bizim torpaqlarımızda məskunlaşdırıblar. Xanlıq qəsəbəsində azərbaycanlıların evlərini söküb sonra ermənilər üçün evlər tikiblər. Bu da ermənilərin maşını. Bax, bu maşınları sürürdülər onlar. Bu da bizim qəhrəman əsgərlərimizin adları. Öz adlarını yazıblar bu evlərin üzərində. Biləsuvar, Şabran, Sabirabad, Şuşa, Oğuz. Bax, qanunsuz məskunlaşma budur. Bu da ermənilərin növbəti maşınları, baxın.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndinə gəldilər, burada hərbçilərlə görüşdülər.

Prezident İlham Əliyev qeyd etdi ki, bu, ermənilərin bizim qədim kəndimizdə saldığı bir qəsəbədir. Bizim evlərimizi söküb, ondan sonra da xaricdən gələn ermənilərin pulu ilə bu qəsəbə salınıb. İndi biz burada yaşayırıq. Siz burada məskunlaşmısınız, xidmət göstərirsiniz. Biz öz doğma torpaqlarımıza qayıtmışıq. Bu torpaqları döyüş meydanında azad etmişik. Düşməni öz torpaqlarımızdan qovmuşuq, bax, sizin kimi əsgərlərin sayəsində. Bütün dünya gördü ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti nəyə qadirdir.

Döyüş meydanında gücümüzü göstərdik. Ermənləri torpaqlarımızdan qovduq. Azərbaycan Bayrağını torpaqlarımızda ucaltdıq. Azərbaycan xalqının ən böyük arzusunu yerinə yetirdik, döyüş meydanında, danışıqlar yolu ilə yox. Bizim başımızı aldadırdılar. Bu 27 il ərzində ermənilər burada özləri üçün qəsəbə salıblar, xaricdən erməniləri gətiriblər. Xanlıq qəsəbəsinə bir eybəcər erməni adı veriblər.

Gördülər bizim gücümüzü. Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim irəli.

Qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi. Mənə məlumat verilir ki, indi dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu, bir yenilikdir, XXI əsrin müharibəsidir. Həm peşəkarlıq, həm iradə, milli ruh, qəhrəmanlıq hesabına torpaqlarımızı işğalçılardan azad etmişik.

Biz sizinlə fəxr edirik. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan əsgəri! Qarabağ Azərbaycandır!

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinə yola düşdülər.

Prezident İlham Əliyev məlumat verdi ki, Qubadlı rayonunun ərazisindən iki böyük çay keçir: Həkəri çayı və Bazarçay. Onlardan biri də budur, baxın. Çox güman ki, bu, Həkəri çayıdır. Bura isə Aşağı Mollu kəndidir. Şəhidimiz Əsgərov Rüfətin şəkli. Allah rəhmət eləsin! Bütün şəhidlərimizə Allah rəhmət eləsin!

Qubadlı rayonunun gözəl mənzərəsi. Yenə də dağıdılmış kənd. Hər şeyi yenidən quracağıq, yolları da, bütün infrastrukturu da. Gözəl mənzərədir.

Bu da yəqin ki, Bazarçaydır. Çünki Qubadlının bir tərəfindən Həkəri çayı axır, digər tərəfindən Bazarçay, bax, buradan görünür. Ona Bərgüşad çayı da deyirlər. Qəzyan kəndi. Bax, ermənicə nəsə yazıblar orada.

Diləlimüskənli kəndi. Bu kənd də dağıdılıb. Bütün evlər dağıdılıb. Bir-iki ev qalıb, orada da düşmən yaşayıb. Bu da Saray kəndidir. Saray kəndi Qubadlı şəhərinin yaxınlığında yerləşir. Bu kənd də dağıdılıb.

Baxın, Qubadlı şəhərini düşmən nə günə qoyub. Bütün binalar dağıdılıb. Ancaq özləri üçün hərbi hissə tikiblər. Bu da Qubadlı şəhəri. Bu, yəqin ki, onların anbarları olub. Bu ev də sökülüb. Qubadlı şəhərinin girəcəyində ermənilər hərbi baza tikiblər. Gün də çıxdı. Təbiət də bizi alqışlayır, salamlayır. Sahibləri gəlib bu torpağa. Gör nə gündədir Qubadlı şəhəri? Nə günə qoyub düşmən bizim şəhərimizi?

Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaltdı.

Dövlətimizin başçısı burada çıxış etdi. Prezident İlham Əliyev bildirdi ki, bu gün səhərdən yağış yağırdı, biz Qubadlıya çatanda gün çıxdı. Təbiət də bizi salamlayır, bizi alqışlayır. Qubadlıya öz sahibləri qayıdıb. Qubadlının işğaldan azad edilməsi tarixi hadisə idi. Oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsi bizim qələbəmizi yaxınlaşdırdı. Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi, şəhidlər vermişik. Onların arasında Qubadlı rayonundan olan Milli Qəhrəman Şükür Həmidov öz doğma diyarı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidova mən Milli Qəhrəman adını Aprel döyüşlərindən sonra verdim, göstərdiyi qəhrəmanlığa görə. Allah ona rəhmət eləsin! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan hərbçiləri, o cümlədən Şükür Həmidov dövlət tərəfindən yüksək döyüş ordenləri ilə təltif edilmişdir.

Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra təbii ki, bizim növbəti istiqamətimiz Qubadlı rayonu idi və şəhərdə ermənilər güclü istehkam qurmuşdular. İndi şəhərdən əsər-əlamət qalmayıb, bütün binalar dağıdılıb, sökülüb və yol boyunca Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının bütün kəndləri, qəsəbələri dağıdılıb. Ancaq burada, şəhərin girəcəyində düşmən hərbi baza yaratmışdı. Bu yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Ona görə Qubadlı şəhərini azad etmək o qədər də asan məsələ deyildi. Gərək, ilk növbədə, ermənilərin istehkamları məhv ediləydi, onlardan biri Xanlıq qəsəbəsində yerləşirdi. Orada güclü istehkam qurmuşdular və Xanlıq qəsəbəsini onlar özləri üçün bir baza kimi yaratmışdılar. Xaricdə yaşayan ermənilər orada qəsəbə salmışdılar. İndi bu qəsəbədə Azərbaycan əsgərləri yerləşib. Xaricdə yaşayan ermənilərin pulu ilə xaricdən ermənilər gətirilib və qanunsuz şəkildə Qubadlıda yerləşdirilib. Bu, özlüyündə hərbi cinayətdir. Bu cinayətə və bütün digər cinayətlərə görə Ermənistan dövləti cavab verəcəkdir.

Qubadlını azad etmək üçün, ilk növbədə, biz bu yüksəklikləri götürməli idik. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Eyni zamanda, Ermənistan ərazisindən bizə atəş açılırdı. Nəzərə alsaq ki, Azərbaycan Ermənistan ərazisinə keçmək fikrində deyildi və mən bunu müharibə zamanı dəfələrlə bildirmişdim. Onlar hesab edirdilər ki, bu imkanlardan istifadə edib, bizim hücumumuzun qarşısını ala bilərlər. Buradan, Qubadlı şəhərindən Ermənistan sərhədinə, bax, o istiqamətdən 5 kilometr məsafədir. Həm oradan ağır artilleriya ilə, həm də bu yüksəkliklərdən müxtəlif növ silahlardan istifadə edərək bizim əsgərlərimizi, hərbçilərimizi atəşə tutmuşlar. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizləyiblər.

Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim tərəfimdən təsdiq edilirdi və hər gün görülmüş işlərə yekun vurularaq məsələ təhlil edilirdi - gün ərzində görülmüş işlər bizim planlarımıza hansı dərəcədə uyğundur və biz hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir. Beləliklə, Laçın rayonunun cənub hissəsində yerləşən Güləbird kəndi, Səfiyan kəndi, Türklər kəndi azad edilib və eyni zamanda, strateji yüksəkliklər ələ keçirilməndən sonra bu, bizə imkan verdi ki, Laçın dəhlizi artıq atəş altına düşsün.

Düşmən bizi bu tərəfdən gözləyirdi. Çünki təbii ki, düşmən bilirdi Şuşa azad edilməmiş müharibə dayana bilməz. Düşmən hesab edirdi ki, biz Laçın rayonunun cənub hissəsini götürəndən sonra bu tərəfdən Şuşaya gedəcəyik. Biz də bilirdik ki, düşmən bizi orada gözləyir. Biz Şuşaya başqa yolla getdik, onların gözləmədiyi yoldan keçdik. Bu günə qədər də onlar inana bilmirlər ki, bizim qəhrəman əsgər və zabitlərimiz o dağlardan, dərələrdən, meşələrdən necə keçərək Şuşaya yaxınlaşıb və Şuşanı işğaldan azad ediblər. Onlar bizi buradan gözləyirdilər, eyni zamanda, Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsi istiqamətində gözləyirdilər. Biz isə Şuşaya başqa yolla getdik. Şuşaya yaxınlaşaraq bir neçə kəndi azad etdik, o cümlədən Sığnaq, Çanaxçı və Daşaltı kəndini azad etdik. Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi. Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qubadlı azad olundu və noyabrın 8-də Şuşa şəhəri azad edildi. Beləliklə, düşmən təslim olmağa məcbur oldu.

Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat var. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib. Burada bütün vacib amillər bir məqsədi güdürdü ki, az itkilərlə düşmənə sarsıdıcı zərbələr vuraraq, düşmənin ordusunu faktiki olaraq məhv edərək hədəfə çataq və belə də oldu. Biz sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, sonra hücum əməliyyatına keçdik. Çünki biz torpaqlarımızı azad etməli idik. Ermənistanın təxribatlarına son qoyulmalı idi. Günahsız insanların həlak olmasına son qoyulmalı idi və əks-hücumdan sonra hücum edən tərəf, adətən, daha çox itki verir. Ancaq bizim itkilərimiz müharibənin miqyasına görə həddindən çox aşağıdır. Hər bir şəhidimiz əvəzolunmazdır, hər bir insanın həlak olması böyük faciədir, onun özü üçün, yaxınları üçün, qohumları üçün, xalq üçün. Ancaq onu da bildirməliyik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Məhz buna görə ola bilər bəziləri hesab edir ki, bu məsələ daha da tez həll oluna bilərdi. Halbuki 44 gün ərzində bu ərazini işğaldan azad etmək və düşməni məhv etmək, düşmən ordusunu məhv etmək, düşməni təslim olmağa məcbur etmək böyük qəhrəmanlıqdır.

Biz çalışırdıq, öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək. Ancaq bu gün də artıq xarici mətbuata sızılan məlumatlar da onu göstərir ki, bu müharibə hərbi ekspertlər tərəfindən çox ciddi təhlil edilirdi və edilir. Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat - bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi.

Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkilək. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük Qələbə qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik. Düşmənə elə sarsıdıcı zərbələr endirmişik ki, bu günə qədər özünə gələ bilmir.

Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası idi. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Ondan sonra Ağdam, Laçın, Kəlbəcər rayonları bir güllə atmadan bizə qaytarıldı. Bu gün Azərbaycan əsgəri bu rayonlarda xidmət göstərir. Bu da böyük nailiyyətdir. Biz mütləq o bölgələri də, o rayonları da döyüşərək alacaqdıq. Amma çox itkilər verə bilərdik, xüsusilə Ağdam istiqamətində, hər tərəf minalanmışdı və bir neçə müdafiə xətti var idi. Eyni zamanda, xüsusilə hava şəraitini nəzərə alsaq, Kəlbəcər, Laçın rayonlarının döyüşlə azad edilməsi də böyük itkilərə gətirib çıxaracaqdı. Artıq qış başlamışdı, yolları buz bağlamışdı. Kəlbəcərə Göygöl rayonundan keçmək üçün saatlarla vaxt lazımdır.

Ona görə noyabrın 10-da imzalanmış Bəyanatın çox böyük əhəmiyyəti var. Təbii ki, əgər biz o günə qədər böyük ərazini işğalçılardan azad etməsəydik, düşmənin belini qırmasaydıq, düşmən ordusunun məhv edilməsində istədiyimizə nail olmasaydıq, əlbəttə, düşmən onun üçün bu alçaldıcı sənədə qol qoymazdı. Biz onu məcbur etdik, torpaqlarımızdan qovduq və mən verdiyim sözə həmişə olduğu kimi sadiq qaldım. Müharibənin ilk günlərindən demişdim, Ermənistan rəhbərliyi açıq-aşkar bəyan etməlidir ki, nə vaxt, hansı tarixdə bizim torpaqlarımızdan çıxır. Tarix verməlidir bizə. Əgər bu olarsa, biz müharibəni dayandırarıq. Amma bizə tarix verilmədi. Çalışırdılar ki, müxtəlif yollarla xarici ölkələri bu işlərə qoşaraq öz çirkin əməllərini davam etdirsinlər, işğalı davam etdirsinlər. Əgər Ermənistan rəhbərliyi o vaxt mənim sözümə baxıb düzgün addım atsaydı, belə alçaldıcı vəziyyətə düşməzdi. Mən demişdim ki, axıra qədər gedəcəyik və axıra qədər də getdik, lazım olan anda dayandıq, üç rayonu bir güllə atmadan, bir itki vermədən qaytardıq, ərazi bütövlüyümüzü bərpa etdik.

Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Bu gün Ali Baş Komandan kimi, mən azad edilmiş bu torpaqlarda əsgərlərlə görüşürəm. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılır, ilkin kontraktlar imzalanmışdır. Mənfur düşmən hər şeyi dağıdıb. Yol boyunca Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, bax, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, burada hərbçilər və onların ailə üzvləri yaşayıblar. Bütün binalar, bütün evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz mənfur düşmən tərəfindən dağıdılıb. Bu cinayətlərin hamısı sənədləşdirilir.

Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə saldı. Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq və bu gün məcbur olub, bizim qabağımızda diz çökübvə düzgün nəticə çıxarmalıdır. Ermənistan cəmiyyəti düzgün nəticə çıxarmalıdır. Revanş hissi ilə yaşayacaqlarsa, onların axırı pis olacaq. Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar.

Biz öz istəyimizə nail olduq. Dekabrın 10-da Zəfər paradı keçirildi. Zəfər paradında biz düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasını nümayiş etdirdik və öz hərbi potensialımızı nümayiş etdirdik. Biz bundan sonra da ordumuzu gücləndirəcəyik. İndi gələn ilin büdcəsi müzakirə olunur. Mənim təşəbbüsümlə hərbi xərclər artırılır. İlk növbədə, ona görə ki, müharibə zamanı biz bir çox silah-sursatdan istifadə etdik, onları bərpa etmək lazımdır. Eyni zamanda, müasir texnikanın bundan sonra da alınması nəzərdə tutulur. Bundan sonra da ordumuzun müasirləşdirilməsi, ordumuzun döyüş potensialı, ordumuzun peşəkarlığı daim diqqət mərkəzində olacaqdır.

Biz Qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmasın. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır. Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik.

Qubadlı rayonu ölkəmizin ən gözəl rayonlarından biridir və qısa müddət ərzində lazım olan bütün bərpa işləri də nəzərdə tutulur. Xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar. Videosənədlər, fotosənədlər toplanır, bütün dəymiş ziyan hesablanacaq. Bizim torpaqlarımız istismar edilirdi, təbii ehtiyatlarımız istismar edilirdi. Zəngilan rayonunda qızıl yatağı istismar edilirdi. Azad edilmiş digər ərazilərdə də, həmçinin. Bütün bunların hesabını Ermənistan dövləti verəcək. Bununla paralel olaraq bütün bərpa işləri təmin ediləcək və biz bütün şəhər və qəsəbələrimizi, kəndlərimizi bərpa edəcəyik, insanlar buraya qayıdacaq və biz öz torpağımızda bundan sonra əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi öz torpağımızdan çıxara bilməz.

Mən müharibədən əvvəl dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, bu gün Azərbaycan güclü ölkədir və tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən o vaxt təkcə iqtisadi yox, o cümlədən hərbi potensialımızı da nəzərdə tuturdum. Tarix və müharibənin nəticələri onu göstərdi ki, mən haqlı idim. Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!

Sonra dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Zəngilan rayonuna yola düşdülər.

Prezident İlham Əliyev qeyd etdi ki, düşmən Zəngilanda da hər şeyi dağıdıb. Baxın, dağılmış evlər. Baxın, bu evi nə günə qoyublar.

Prezident İlham Əliyev Zəngilanda Azərbaycan bayrağını ucaltdı.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidə gəldilər.

Məscidin qarşısında çıxış edən Prezident İlham Əliyev dedi ki, görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib.

Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb? Bu yaxınlarda UNESCO-nun bir məmuru əsassız bir ifadə işlədib ki, guya bizə müraciət olunub, Azərbaycan isə səssiz qalıb. Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz ermənileşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər. Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər? Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost ölkə deyirlər. Bu "dost ölkəyə" 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi, təhqir ediblər. Bütün dünya bunu görməlidir. Əgər bizə qarşı hər hansı bir irad irəli sürüləcəksə, cavabını verəcəyik. İstənilən beynəlxalq təşkilat gəlsin, bunu görsün, öz hesabatında bunu əks etdirsin, qınasın işğalçı dövləti və görsün ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq, biz kimi qovmuşuq torpaqlarımızdan, rədd etmişik onları buradan. Görün şəhərlərimizi nə günə salıblar. Bir dənə də salamat bina yoxdur. Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan "beynəlxalq məmurlar" öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq.

Prezident İlham Əliyev xalqımızı milli hədəflərə doğru apardı və tarixi Zəfəri təmin etdi

əvvəli 1-ci səh.

Pandemiya dövründə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən sosial dəstək aksiyası da aztəminatlı vətəndaşların problemlərinin həlli baxımından əhəmiyyətli olub. "Biz birlikdə güclüyük" şüarı ilə həyata keçirilən aksiya çərçivəsində respublika üzrə 100 minədək aztəminatlı ailəyə ərzaq yardımlarının paylanılması təmin edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasındakı çıxışı ölkəmizin ilk gündən pandemiyaya qarşı sistemli, ardıcıl və preventiv tədbirlər həyata keçirdiyini bir daha nümayiş etdirdi.

İl ərzində ölkədə pandemiya ilə bağlı laboratoriyaların sayı 8 dəfə artırılıb, 10-dan çox yeni müasir xəstəxana, o cümlədən modul tipli xəstəxana tikilib, COVID xəstələri üçün 10 mindən çox çarpayı yeri yaradılıb. Həkim çatışmazlığı probleminin həlli üçün 5 ölkədən - İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən mütəxəssislər dəvət edilib. Yeni karantin tədbirləri ilə bağlı işsiz vətəndaşlara və biznes subyektlərinə maliyyə dəstəyinin davam etdirilməsi nəzərdə tutulub və bu baxımdan respublikamız dünyanın lider dövlətləri sırasında yer alıb. Azərbaycanın 2021-ci ilin əvvəlindən etibarən könüllülük və dövlət hesabına vaksinləşmə prosesini başlamaq niyyəti vətəndaşların sağlamlığının dövlətimiz üçün prioritet məsələ olduğunu bir daha təsdiqləyir.

Dekabrın 3-4-də Azərbaycan Prezidentinin təşəbbüsü, 70-dən çox dövlət və hökumət başçısının iştirakı ilə BMT Baş Assambleyasının koronavirus pandemiyasına həsr olunmuş 31-ci xüsusi sessiyasının keçirilməsi ölkəmizin bu bəşəri bəlaya qarşı səylərin birləşdirilməsində maraqlı olduğunu, habelə pandemiyaya qarşı qlobal mübarizə işinə sanballı töhfələr verdiyini bir daha təsdiqlədi.

Qeyd etdiyimiz kimi, Azərbaycan 2020-ci ili həm də böyük tarixi Zəfərlə başa vurur. 44 günlük Vətən müharibəsində qazandığımız layiqli qələbə bu gün hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, hər kəsdə qürur və fəxarət hissi doğurur.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin də haqlı olaraq qeyd etdiyi kimi, müharibənin başlanmasının məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Birləşmiş Millətlət Təşkilatının hələ 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan işğalçılıq siyasətini uzun illər ərzində davam etdirməyə çalışıb. Beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymayan, işğalçılıq niyyətindən əl çəkməyən bədxah qonşumuz uzun illər ərzində cəbhə xəttində vəziyyəti süni yolla gərginləşdirməyə, təxribatlar törətməyə və bu yolla mövcud "status-kvo"nu qoruyub saxlamağa çalışıb.

Atəşkəslə bağlı hələ 12 may 1994-cü il tarixdə imzalanmış Bişkək protokolundan sonra aparılan danışıqlar prosesinin məhz Ermənistanın qeyri-konstruktiv mövqeyi, habelə münaqişə ilə bağlı nizamlama planlarına etinasız yanaşması səbəbindən nəticə verməməsi bu gün beynəlxalq ictimaiyyətə yaxşı məlumdur. Qarşı tərəfin BMT-nin nizamlama ilə bağlı 4 məlum qətnaməsinə əməl etməməsi, beynəlxalq hüququn sərhədlərin toxunulmazlığı prinsipini uzun illərdir ki, pozması Azərbaycan tərəfindən haqlı olaraq bütün dünyaya bəyan edilir. Bununla belə, 30 ilə yaxın müddətdə Ermənistanda hakimiyyətdə olan siyasi qüvvələr ölkədaxili gərginliyi azaltmaq, ictimaiyyətin diqqətini ciddi sosial-iqtisadi və siyasi problemlərdən yayındırmaq, vaxt qazanmaq məqsədilə Ermənistan-Azərbaycan münaqişəsindən siyasi alət kimi yararlanmağa çalışıblar.

Ərazisi işğala məruz qalmış Azərbaycanın 30 ilə yaxın müddətdə diplomatik təmkin nümayiş etdirməsi, beynəlxalq təşkilatlar və aparıcı dövlətlərin münaqişəni danışıqlar yolu ilə tənzimləmək çağırışlarına həssaslıqla yanaşması, lakin bunun müqabilində işğalçı Ermənistana ciddi beynəlxalq təzyiqin göstərilməməsi son illərdə vəziyyəti daha da gərginləşdirmişdi. BMT ilə yanaşı, Avropa Şurası, Avropa İttifaqı, NATO, İslam Konfransı Təşkilatı və digər mötəbər beynəlxalq təşkilatların münaqişə ilə bağlı qətnamə və bəyanatlarına məhəl qoymayan Ermənistanın aşkar şəkildə ərazi ilhaqı siyasəti yürütməsi, Dağlıq Qarabağa dünya praktikasında mövcud olan ən yüksək müxtariyyət statusunun verilməsi təklifi ilə razılaşmaması danışıqlar prosesini "dalana dirəmişdi". Prezident İlham Əliyevin bəyan etdiyi kimi, "Əgər beynəlxalq ictimaiyyət qətnamələrin yerinə yetirilməsini təmin edə bilmirsə, Azərbaycan bunu özü edəcək".

Ermənistan rəhbərliyinin son 2 ildə danışıqlardan faktiki olaraq imtina edərək

Azərbaycana qarşı qəbuledilməz və əsassız şərtlər irəli sürməsi, terrorçu qruplaşmaları, muzdlu döyüşçüləri işğal etdiyi ərazilərimizdə yerləşdirməsi, cəbhə bölgəsində və qoşunların təmas xəttində açıq təxribatlar törətməsi hərbi əməliyyatların bərpası ehtimalını zamanla daha da artırırdı. Bu azmış kimi, son aylarda Şuşa şəhərində qondarma Dağlıq Qarabağ rejiminin "rəhbəri"nin "andiçmə mərasimi"nin təşkili, "Dağlıq Qarabağ parlamenti"nin Xankəndidən Şuşaya köçürülməsi barədə qərarın qəbulu düşmənin növbəti təxribatları, Azərbaycanı yeni müharibəyə təhrik etmək cəhdləri idi.

44 günlük müharibədə 5 min kvadratmetrədək ərazisini, 5 rayonunu, 2 şəhər tipli qəsəbəsini, 300-dək kəndini işğaldan azad edən Azərbaycan Ermənistanı hərbi kapitulyasiya barədə sənədi imzalamağa məcbur etdi. Beləliklə, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ermənistanın işğalçılıq siyasəti üzündən 30 il müddətində həllini tapmayan münaqişənin qısa müddətdə hərbi-siyasi həllinə nail olaraq beynəlxalq hüquq normalarının və ədalətin bərpasını təmin edib. Azərbaycan döyüş meydanında parlaq qələbə qazanmaqla, siyasi meydanda da istəyinə nail olub. Üçtərəfli 10 noyabr sazişinin imzalanması ilə faktiki olaraq Ermənistan-Azərbaycan münaqişəsi artıq tarixə çevrilib.

10 noyabr sazişinə əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğaldan dinc yolla azad edilməsi məhz Azərbaycanın şanlı hərbi qələbəsi nəticəsində mümkün olub. Ermənistan döyüş meydanında məğlub olmasaydı, öz xoşu ilə torpaqlarımızdan çıxmayacaqdı. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan döyüş meydanında Ermənistan ordusunu sarsıdaraq, hərbi texnikasının 80 faizini məhv edərək onun saxta "yenilməzlik mifi"ni darmadağın edib.

Azərbaycanın hərbi-siyasi qələbəsi nəticəsində imzalanmış məlum üçtərəfli Bəyanat əsasında dekabrın 1-də Laçın rayonunun işğaldan azad edilməsi təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil, eyni zamanda Ermənistanın son 30 ildə təcavüzkar siyasətini reallaşdırmaq üçün sərf etdiyi böyük maliyyə vəsaitinin, iqtisadi, siyasi və diplomatik cəhdlərinin tam fiasko ilə üzləşməsi deməkdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin araşdırmalarına görə, 1995-2020-ci illərdə Ermənistanın hərbi xərcləri 7,9 milyard dollar təşkil edib, üstəlik formalaşdırdığı marionet və qondarma rejimin xərcləri də təcavüzkar dövlətin üzərinə düşüb. Halbuki qeyd olunan müddətdə Ermənistanın özünün iqtisadiyyatına qoyulmuş birbaşa investisiyaların həcmi təxminən 8 milyard dollar civarında olub. Bu, 2020-ci il səviyyəsi ilə Ermənistanın 2,5 illik dövlət büdcəsinə bərabərdir.

İşğalçı siyasət yürüdən Ermənistan faktiki olaraq son 25 ildə Azərbaycanın liderliyi ilə regionda həyata keçirilən bütün strateji əhəmiyyətli neft-qaz, nəqliyyat-kommunikasiya, logistika layihələrindən məhrum olmaqla özünütəcrid vəziyyətinə düşüb. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TAP, TANAP və s. kimi layihələrin Ermənistan ərazisindən keçməməsi bu ölkənin hər il yüz milyonlarla ölçülən gəlirdən məhrum olması deməkdir. Prezident İlham Əliyev bununla bağlı haqlı olaraq deyib: "Ermənistan, haradasan? Bakı-Tbilisi-Ceyhan yan keçdi. Bakı-Tbilisi-Ərzurum da həmçinin. TANAP da həmçinin. İndi biz qazımızı Avropaya çatdırırıq. Sən, Ermənistan, pul qazana bilərdin. Kəmərin bir hissəsi sənin əlində ola bilərdi. Sən tranzit haqqı alacaqdın. Sən özünü nədən məhrum etdin?! Dəyərdimi buna? Bu işğalçılıq, bu düşmənçilik, qonşuya qarşı bu nifrət hissləri, onları, bax, bu günə saldı".

Militarist siyasət yürüdən, yaxın və uzaq perspektivə hesablanan bütün planlarını işğalçılıq marağı üzərində kökləyən, hər 4 nəfərindən biri yoxsulluq içində yaşayan Ermənistan ciddi sosial-iqtisadi, infrastruktur layihələrinin icrasından məhrum olub, strateji əhəmiyyətli müəssisələrini Rusiya və digər ölkələrə satmağa məcbur qalıb. Hazırda Ermənistanın dəmir yolları 100 faiz Rusiyaya məxsusdur. İşğal faktına son qoyulması ilə Ermənistanın Dağlıq Qarabağ və ətraf rayonlarda həyata keçirdiyi qeyri-qanuni məskunlaşma siyasəti, habelə Livan və Suriya əsilli ermənilərin Azərbaycan ərazilərində yerləşdirilməsi üçün sərf etdiyi milyonlarla dollar vəsait puç olub.

Ermənistan beynəlxalq konvensiyaları pozaraq Azərbaycan ərazisindəki faydalı qazıntıların - o cümlədən Zəngilan rayonundakı Vejnəli, Kəlbəcər rayonundakı Söyüdlü (Zod) qızıl yataqlarının qanunsuz mənimsənilməsini həyata keçirərək külli miqdarda valyuta əldə etsə də, hazırda bu imkandan məhrum olub. Ermənistanın cəmi ixracının dəyəri 2019-cu ildə 2,6 milyard ABŞ dolları olub, bunun 16 faizini və yaxud 415 milyon dollarını qızıl və qiymətli daşlar, qiymətli metallar və onlardan hazırlanan məmulatların ixracı təşkil edib. Təcavüzkar ölkənin ixracında xüsusilə qızıl strateji məhsullardan biri kimi daim ön sırada yer alıb.

İşğal altındakı Azərbaycan ərazilərindəki təbii yaylaqlardan, otlaqlardan, örüş sahələrindən qeyri-qanuni şəkildə istifadə edərək maldarlıqla məşğul olan erməni fermerlər artıq əllərindəki çoxlu sayda iri və kiçik buynuzlu mal-qaranı satmağa məhkum olublar.

Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarının münbit torpaqlarından taxılçılıq məqsədilə qeyri-qanuni şəkildə istifadə etmiş erməni fermerlərin hesabına buğda və arpa məhsullarına olan ehtiyacının 25 faizə qədərini təmin edən, ildə təxminən 190 min tonadək taxıl yığan Ermənistan bu imkandan da məhrum edilib. Məğlubiyyət nəticəsində artıq Ermənistanın ciddi ərzaq böhranı ilə üzləşəcəyi, idxaldan asılılığının güclənəcəyi, drama təzyiqlərin daha da artacağı gözlənilir. 44 günlük müharibə nəticəsində ordusu demək olar ki, məhv edilən Ermənistan həm də 1 milyard dollardan çox maliyyə itkisinə məruz qalıb, gündəlik müharibə xərcləri təxminən 30-35 milyon ABŞ dolları təşkil edib. Ermənistanın xarici borclarının həcmi bu il 8 mlrd. dollara yüksəlib və ÜDM-in 70 faizinə yaxınlaşıb.

Ermənistan 30 ildən çox müddətdə işğalçı siyasət yürüdərək özünü regional layihələrdən təcrid etsə də, heç bir məqsədinə nail ola bilməyib. Bu gün faktiki olaraq Ermənistan regionda müstəqilliyini tamamilə itirib, müstəmləkə altında olan dövlətə çevrilib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu idimi erməni xalqının arzuları? Bu idimi onların gözləntiləri? Onlar nə üçün müstəqil ölkə ola bilmədilər? İşğala görə. İşğaldan nə qazandılar? Heç nə. Biabır oldular siyasi müstəvidə, bütün beynəlxalq təşkilatlarda biz fəal iş apararaq onları biabır etdik və bizə lazım olan, beynəlxalq hüququ tələb edən qətnamələr, qərarlar qəbul olundu".

Xüsusi qeyd etmək istərdik ki, 2021-ci ildə ərazilərimizin bərpası və yenidən qurulması tədbirləri üçün 2,2 milyard manat vəsaitin nəzərdə tutulması gələn ilin "Böyük qayıdış" planının reallaşdırılması baxımından mühüm mərhələ olacağını, işğalçılardan təmizlənmiş rayon və şəhərlərin yol-nəqliyyat infrastrukturunun bərpası, elektrik enerjisi, su, rabitə, mavi yanacaq və s. təminatı istiqamətində mühüm layihələrin reallaşdırılacağını deməyə ciddi əsaslar yaradır. Ayrılmış vəsaitin müəyyən qismi, eyni zamanda qeyd olunan ərazilərdə müasir inzibati infrastrukturun yaradılmasına, mədəni-tarixi abidələrin bərpası və yenidən qurulmasına yönəldiləcək.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara artıq ənənə halını almış səfərləri həm də erməni vandalizmi nəticəsində tamamilə dağıdılmış, yerləyeksan edilmiş şəhər, rayon və kəndlərin bərpası və yenidən qurulması layihələri ilə yerində qərar qəbul etmək məqsədi daşıyır.

Dövlət başçısının tapşırığı əsasında hazırlanan baş planlar işğaldan azad edilmiş yaşayış məskənlərinin - şəhər və rayonların, qəsəbələrin müasirliklə tarixiliyin sintezinə əsaslanan şəhərsalma-arxitektura elementləri əsasında bərpasına və yenidən qurulmasına imkan yaradır.

İşğaldan azad edilmiş bəzi ərazilərin qısa müddətdə elektrik enerjisi ilə təchiz edilməsi, eyni zamanda "Azərenerji" və "Azərişıq" ASC-yə bölgənin enerji infrastrukturunun bərpası istiqamətində verilən tapşırıqlar qlobal böhran şəraitində ölkəmizin güclü iqtisadi-maliyyə potensialının göstəricisidir. İşğaldan azad edilmiş ərazilərin bol sulu çayları, eyni zamanda Xudafərin, Sərsəng, Suqovuşan və digər su anbarları təkcə su elektrik stansiyaların yaradılmasına, yeni enerji güclərinin alınmasına deyil, eyni zamanda suvarma infrastrukturunun bərpasına imkan yaradır.

İşğaldan azad edilmiş ərazilərdə həm respublika, həm də yerli əhəmiyyətli 2700 kilometrədək yolların bərpasının nəzərdə tutulması, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı əsasında uzunluğu 101,5 km təşkil edən Əhməd-bəyli-Füzuli-Şuşa avtomobil yolunun çəkilişinə başlanılması regionun gələcək iqtisadi inkişafı baxımından vacib əhəmiyyət kəsb edir. Bundan əlavə, bölgənin tamamilə sıradan çıxmış dəmir yolu xətləri şəbəkəsinin bərpa planına əsasən, yaxın perspektivdə uzunluğu 104 km olan Yevlax-Xankəndi dəmir yolu xəttinin Bərdə-Ağdam hissəsinin, habelə 43 km olan Horadiz-Ordubad, 51 km olan Yevlax-Xankəndi, 39,1 km olan Mincivan-Qafan, 6,3 km olan Qazax-Barxudarlı dəmir yolu xətlərinin bərpasının nəzərdə tutulması təkcə iqtisadi deyil, siyasi baxımdan da əhəmiyyətlidir.

Ermənistan ərazisindən keçərək Azərbaycanla Naxçıvanı birləşdirəcək yeni avtomobil və dəmir yollarının çəkilişi daha sərfəli, alternativ nəqliyyat-kommunikasiya marşrutu yaratmaqla, təkcə respublikamızın deyil, ümumən region dövlətlərinin (Türkiyə, Rusiya, Ermənistan, habelə Orta Asiya və Şərq ölkələri) geoiqtisadi maraqlarına uyğundur. Yeni nəqliyyat-kommunikasiya xətləri nəticəsində Azərbaycan Naxçıvan MR-ə və Türkiyənin şərq hissəsinə daha əlverişli çıxış əldə edəcək. Bu yollar eyni zamanda Rusiya Federasiyasının Türkiyəyə Gürcüstandan kənar yeni avtomobil və dəmir yolu marşrutu əldə etməsinə imkan yaradacaq.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində reallaşdırılacaq infrastruktur və biznes layihələrində təkcə yerli deyil, xarici şirkətlərin də iştirakının nəzərdə tutulması bölgədə iqtisadi fəallığın artmasına, respublikamızın investisiya cəlbediciliyinin yüksəlməsinə yeni perspektivlər açacaq.

Azərbaycan dövlətinin son 25 ildə apardığı sosial siyasətin prioritet istiqamətlərindən birini ölkəmizin Silahlı Qüvvələrinin şəxsi heyətinin, eləcə də şəhid ailələri və Qarabağ müharibəsi iştirakçılarının sosial müdafiəsinin, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların cəmiyyətdə layiqli statusunun təmini məsələləri təşkil edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 17 ildə ölkədə reallaşdırılan hərbi-vətənpərvərlik təbliğatı və sosial müdafiə tədbirləri cəmiyyətdə orduya və hərbi qulluqçulara yüksək etimad və rəğbətin təmin olunmasına, hərbçilərin Vətən və xalq qarşısındakı əvəzsiz xidmətlərinin adekvat dəyərləndirilməsinə hesablanıb.

Ötən illərdə həm Böyük Vətən müharibəsi, həm Əfqanıstan, həm də Qarabağ müharibəsi veteranlarının, şəhid ailələrinin mənzil, torpaq sahəsi və avtomobillərlə təminatı, əlillərin yerli və xarici sanatoriyalara göndərilməsi, onlar üçün reabilitasiya mərkəzlərinin açılması, pensiya və müavinətlərinin davamlı şəkildə artırılması, onlara vergi güzəştlərinin tətbiqi və s. xüsusi qeyd olunmalıdır.

Heydər Əliyev Fondunun, şəxsən Fondun prezidenti Mehriban Əliyevanın xüsusi diqqət və qayğısı ilə ötən 15 ildə veteran hərbçi və şəhid ailələri üçün Bakının rayonlarında və regionlarda çoxsaylı fərdi ev və yaşayış binaları inşa olunub, onlara müxtəlif sosial yardımlar edilib. Prezident İlham Əliyev xalqa çoxsaylı müraciətləri və xarici KİV-ə müsahibələrində Azərbaycan Ordusunun yüksək döyüş ruhunu, peşəkarlıq səviyyəsini, hərbçilərimizin yüksək şücaət və rəşadətini xüsusi vurğulayıb, şəhidlərin xatirəsini ehtiramla yad edərək onların qəhrəmanlıqlarının heç zaman unudulmayacağını bəyan edib.

Dövlət başçısının dekabrın 7-dən etibarən imzaladığı müvafiq sərəncamlar əsasında Silahlı Qüvvələrin hərbi qulluqçularının müxtəlif orden və medallarla təltif edilmələri Vətən müharibəsində xüsusi igidlik və cəsarət, qəhrəmanlıq göstərmiş hərbçilərimizin və şəhidlərimizin xidmətlərinin dövlət səviyyəsində yüksək dəyərləndirilməsidir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli "Azərbaycan Ordusuna Yardım Fondunun yaradılması və "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanının ləğv edilməsi barədə" Fərmanı əsasında yaradılmış Fondun məqsədi Azərbaycan Ordusunun müasir tələblərə uyğun inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirməklə yanaşı, hərbi qulluqçuların sosial müdafiəsini daha da gücləndirməkdən ibarətdir.

Dövlət başçısının 8 dekabr 2020-ci il tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında" Fərmanı müharibə iştirakçılarına və şəhid ailələrinə yardım və ictimai dəstək mexanizmlərinin formalaşdırılmasına, xeyriyyəçilik, humanizm və filantropiya ənənələrinin ictimai şüura aşılanmasına xidmət edir. Belə bir Fondun yaradılması ilə müharibə iştirakçılarının, şəhid ailələrinin üzləşdiyi problemlərin həllində dövlət qurumlarının, sıravi vətəndaşların, sahibkarların, ictimai fəal şəxslərin, vətəndaş cəmiyyəti təsisatlarının və s. iştirakı təmin edilir, yardımların ünvanlılığı və şəffaflığı təmin olunur.

Qeyd olunanlar bir daha təsdiq edir ki, Azərbaycan Prezidenti İlham Əliyevin siyasətində yalnız bir amil prioritetdir - Azərbaycan xalqının və dövlətinin milli maraqları. Vətən müharibəsinin gedişi və yekunları Azərbaycan Prezidentinin necə vətənpərvər, qətiyyətli və prinsipial olduğunu bir daha təsdiqlədi. Dövlət başçısı heç bir beynəlxalq gücə boyun əymədən, xarici təzyiqləri dəf edərək xalqımızı milli hədəflərə doğru apardı və tarixi Zəfəri təmin etdi!

Vətən müharibəsi və onun qələbə ilə başa çatması müasir Azərbaycan dövlətinin həyatının ən parlaq anları kimi, tariximizin bundan sonrakı dönəmlərində daim xüsusi qürur və iftixar hissi ilə xatırlanacaq. Çünki bu, millətin ümid, inam, qürur anları idi. Bu, ölkəmizin yeni tarixinin başlanğıcı, yeni inkişaf üfüqlərinin açılması məqamıdır. Vətən müharibəsi və Azərbaycanın şanlı Zəfəri əslində xeyirin şər üstündə qələbəsidir. Nəzərə alsaq ki, şər qüvvələri təkcə işğalçı Ermənistan deyil, həm də onun havadarları təmsil edirdilər, onda Azərbaycanın qələbəsinin tarixi əhəmiyyəti və mənası daha aydın təsəvvür edilə bilər.

Prezident İlham Əliyevin xalqa müraciətlərində, ayrı-ayrı ölkələrin nüfuzlu media orqanlarına müsahibələrində xeyirin şərə qarşı mübarizəsi və onun qələbə ilə nəticələnməsi özünün geniş ifadəsini tapmışdır. Vətən müharibəsində şər üzərində qələbə Azərbaycan xalqının ədalətli mübarizəsinin beynəlxalq əhəmiyyətindən xəbər verir. Xeyirlə şərin mübarizəsi qədim əsatirlərin mövzusu olsa da, etiraf etmək lazım gəlir ki, şər qüvvələr müasir dünyada da mövcuddur və ona qarşı mübarizə aparılması qlobal həyatın aktual problemi olaraq qalmaqdadır. Azərbaycan regionumuza və dünyaya təhdid olan şər qüvvələri məğlub etməklə əslində dünya miqyasında sülhə və təhlükəsizliyə özünün əhəmiyyətli töhfəsini vermişdir.

Azərbaycan xalqı ölkəmizə möhtəşəm zəfər sevincini bəxş etdiyinə, erməni işğalına son qoyduğuna, Qarabağı azad etdiyinə görə dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyevə dərin hörmət və ehtiramını ifadə edir. Şuşanın azad edilməsi şərəfinə, Zəfər günündə Bakının, digər şəhərlərimizin küçələrini dolduran izdiham, sevinc və bəxtiyarlıq hissləri bu hörmət və ehtiramın aydın ifadəsi idi.

Bir ölkənin Prezidenti, bir xalqın lideri olmaq böyük şərəfdir. Lakin xalqın sevimlisi olmaq, onun hörmət və ehtiramını qazanmaq daha böyük şərəf, daha böyük bəxtəvərlikdir. Prezident İlham Əliyev, özünün qeyd etdiyi kimi, xoşbəxt insandır. Xoşbəxtdir ki, öz üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirdi. Azərbaycanın yeni, şanlı tarixinin müəllifi, xalqımızın bitib tükənmək bilməyən sevinc, qürur və bəxtiyarlığının ilham mənbəyi oldu. Bu elə bir zirvədir ki, ondan yüksəyini təsəvvür etmək mümkün deyil!

Ümumdünya Gömrük Təşkilatının Baş katibi Azərbaycan Prezidentini təbrik edib

Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

Məktubda deyilir:

- Hörmətli Prezident İlham Əliyev.

Sizi doğum gününüz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram.

Zati-alilərı, Siz Ümumdünya Gömrük Təşkilatı ilə Azərbaycan Respublikası arasında əlaqələrin inkişafına daim yüksək diqqət yetirirsiniz. Mən Azərbaycanın gömrük sisteminin inkişafı və modernləşdirilməsi ilə ölkənin milli hədəflərə çatmasına töhfə vermək istiqamətində Ümumdünya Gömrük Təşkilatı ilə ölkəniz arasındakı davamlı və sıx əməkdaşlığa sadiq olduğumu bir daha vurğulamaq istəyirəm. İnanıram ki, əlaqələrimiz qarşıdakı illərdə də hər iki tərəf üçün səmərəli nəticələr verməkdə davam edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, qarşıdan gələn 2021-ci ildə Sizə cansağlığı və xoşbəxtlik, ölkənizə və vətəndaşlarınıza sülh və tərəqqi arzulayır, gələcəkdə Sizinlə yenidən görüşməyi səbirsizliklə gözləyirəm.

Cənab Prezident, Sizə ən yüksək ehtiramımı bir daha bildirirəm.

Hörmətlə,

Kunio Mikuriya
Ümumdünya Gömrük Təşkilatının Baş katibi

Biləsuvar gömrük postunda bayrağımız 35 metr hündürlükdə ucaldılıb

Azərbaycan Respublikasının İran İslam Respublikası ilə sərhədində yerləşən Cənub Ərazi Baş Gömrük İdarəsinin Biləsuvar gömrük postunda 35 metr hündürlükdə yeni bayraq dirəyi quraşdırılıb və dekabrın 24-də üçrəngli bayrağımız ucaldılıb.

Azərbaycan Respublikasının Dövlət Bayrağı postda xidmət edən Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidmətinin əməkdaşlarının iştirakı ilə keçirilən rəsmi mərasimdə dalğalandırılıb və Dövlət Himni səsləndirilib. Eyni zamanda, Biləsuvar gömrük postu ərazisində dövlətimizin atributlarının əks olunduğu məlumat lövhəsi yenilənib.

Milli Məclisin plenar iclasında 2021-ci ilin dövlət büdcəsi müzakirə olunub

Dekabrın 24-25 tarixlərində Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. İclasda 2021-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər sənədlər birinci oxunuşda müzakirə olunub.

2021-ci il dövlət və icmal büdcənin layihələri "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu, Prezident İlham Əliyevin müəyyən etdiyi ölkənin qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı, habelə dövlətin iqtisadi siyasətinin prioritet istiqamətləri üzrə qarşıda duran vəzifələr əsas götürülməklə tərtib edilib.

Növbəti ilin dövlət büdcəsi layihəsinin əsas xüsusiyyətlərindən biri 2020-ci ildə erməni işğalçılarına qarşı zəfər qazandığımız Vətən müharibəsi nəticəsində işğaldan azad olunan ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması, sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturunun yaradılması, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi kimi şərəfli və məsuliyyətli vəzifələrin icrası üçün maliyyə təminatının yaradılmasıdır.

Azərbaycan Respublikasının 2021-ci il icmal büdcəsinin gəlirləri 23 milyard 828,1 milyon manat proqnozlaşdırılıb ki, bu da 2020-ci illə müqayisədə 1 milyard 465,1 milyon manat və ya 6,6 faiz çoxdur. İcmal büdcənin xərcləri 31 milyard 163,4 milyon manat olacaq ki, bu da 2020-ci illə müqayisədə 855,1 milyon manat və ya 2,8 faiz çoxdur. 2021-ci ilin icmal büdcəsinin kəsiri 7 milyard 335,3 milyon manat təşkil etməklə 2020-ci illə müqayisədə 610,1 milyon manat və ya 7,7 faiz azdır. Kəsir proqnozlaşdırılan ÜDM-in 9,7 faizinə bərabər olacaq ki, bu da 2020-ci illə müqayisədə 1,4 faiz-bənd azdır.

2021-ci il dövlət büdcəsinin gəlirləri 25 milyard 427 milyon manat nəzərdə tutulur ki, bu da ÜDM-in 33,6 faizi həcmində olmaqla, 2020-ci ilin proqnozu ilə müqayisədə 1 milyard 303 milyon manat və yaxud 5,4 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 1 milyard 208,9 milyon manat və yaxud 5 faiz çoxdur. 2021-ci il dövlət büdcəsinin xərcləri 28 milyard 543 milyon manat (ÜDM-də xüsusi çəkisi 37,7 faiz) proqnozlaşdırılır ki, bu da 2020-ci ilə nisbətən 1 milyard 50,8 milyon manat və ya 3,8 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 4 milyard 117,1 milyon manat və ya 16,9 faiz çoxdur.

Növbəti ilin dövlət büdcəsinin xərclərinin strukturuna daxil olan cari xərclərə ümumi xərclərin 63,1 faizi həcmində və ya 18 milyard 14 milyon manat, əsaslı xərclərə 29,2 faizi həcmində və ya 8 milyard 330,3 milyon manat, dövlət borcuna xidmətlə bağlı xərclərə 7,7 faizi həcmində və ya 2 milyard 198,8 milyon manat vəsait yönəldiləcək.

2021-ci il üçün dövlət büdcəsinin sosialyönlü xərcləri (büdcə xərclərinin iqtisadi təsnifatına uyğun olaraq əməyin ödənişi, pensiya və müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının, ərzaq məhsullarının alınması xərclərinin cəmi) 11 milyard 111,9 milyon manat məbləğində proqnozlaşdırılıb ki, bu da 2020-ci illə müqayisədə 563,8 milyon manat və ya 5,3 faiz çoxdur. 2021-ci ildə dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 milyard 116 milyon manat məbləğində nəzərdə tutulur. 2021-ci ildə dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 4,1 faiz təşkil edəcək ki, bu da 2020-ci illə müqayisədə 0,6 faiz-bənd azdır.

Kəsirin maliyyələşdirilməsi özəlləşdirmədən daxilolmalar, daxili və xarici borclanma, 2021-ci il yanvarın 1-nə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı hesabına həyata keçiriləcək.

Külli miqdarda narkotik vasitə və psixotrop maddələr aşkarlandı

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları külli miqdarda narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi cəhdinin qarşısını alıblar.

İstanbul-Bakı aviareysilə gələn Azərbaycan Respublikasının vətəndaşı Şahverdiyeva Samirə İlham qızına məxsus çamadan rentgen aparatından keçən zaman monitorda şübhəli təsvirlər müşahidə edilib.

Yoxlama zamanı çamadanın içərisində malların aşkar edilməsini çətinləşdirən üsullardan istifadə etməklə gizlədilən şirniyyat paketlərində13650 ədəd preqabalin, üç bükümdə 552,9 qram narkotik vasitə - kokain, silindr formalı qutudakı yerfıstığının altında 283 ədəd MDMA (metilendioksimetamfetamin), uşaq yeməyinin içinə yerləşdirilmiş iki bükümdə 971,5 qram psixotrop maddə - metamfetamin aşkar edilib.

Dövlət Gömrük Komitəsi Əməliyyat-İstintaq Baş İdarəsinin İstintaq və Təhqiqat İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin çatdırılmalı olduğu şəxsləri müəyyən etmək üçün keçirilən əməliyyat tədbiri nəticəsində cinayətkar qrupun üzvləri Şahverdiyeva Samirə İlham qızı, Səfərov Cəmil Cəlal oğlu və Salmanov Samir Kamil oğlunun qeyd edilən cinayət hadisəsini törətmələrinə əsaslı şübhələr olduğundan şübhəli şəxs qismində tutulublar.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2, 234.4.1, 234.4.3 və 240.3.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara həmin maddələrlə ittiham elan edilib və Yasamal rayon məhkəməsinin qərarına əsasən barələrində həbs qətimkan tədbiri seçilib.

Xatırladaq ki, metamfetamin və MDMA (metilendioksimetamfetamin) "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən psixotrop maddələrin I Siyahısı"na, preqabalin adlı dərman preparatı isə Azərbaycan Respublikasının müvafiq qanunu ilə təsdiq edilmiş "Güclü təsir edən maddələrin və onların külli miqdarının Siyahısı"na daxildir.

Qeyd edək ki, aşkar edilən preqabalin adlı dərman preparatının təsiredici maddəsinin ümumi miqdarı 4095 qram, MDMA (metilendioksimetamfetamin) təsiredici maddəsinin ümumi miqdarı isə 51,54 qramdır.

Gömrük Akademiyasının "edX" ilə əməkdaşlığı gömrük sektorunda kadr potensialını gücləndirir

Dövlət Gömrük Komitəsinin Akademiyasının təşkilatçılığı ilə Dövlət Gömrük Komitəsi və onun orqanlarını təmsil edən gömrük xidməti əməkdaşlarının iştirak etdiyi virtual DGKA-edX Konfransı keçirilib.



Konfransda Akademiya rəisi Qulu Novruzov, edX-in Qlobal Biznesin İnkişafı üzrə rəhbəri Con Şvarts, DGK Katibliyinin rəisi Anar Süleymanov və edX tərəfindən təklif olunan müxtəlif onlayn kursları uğurla tamamlamış 20-dən artıq gömrük xidməti əməkdaşı iştirak edib.

"EdX" müxtəlif elm sahələri üzrə 3000-dən artıq təhsil kurslarını təklif edən proqram platformasıdır. "EdX"nin həlledici xüsusiyyəti kursların öz sürətinə sahib olması və proqramlaşdırıla bilməsidir. Bu platformada dərslər 4-12 həftə davam edir və hər kursun video transkripsiyası var. Hazırda dünya üzrə müxtəlif ölkələrdən "EdX"nin kurslarından keçən tələbə sayı 34 milyondan artıqdır, qeydiyyatdan keçmiş şəxslərin sayı isə 100 milyonu ötüb. "EdX" Harvard Universiteti, Massaçusets Texnologiya İnstitutu, Berkli Universiteti, Kvinslend Universiteti, Pensilvaniya Universiteti, Boston Universiteti, Kioto Universiteti, Tokio Universiteti kimi dünyanın 160-dan artıq ən nüfuzlu ali təhsil müəssisələrinin onlayn tədris prosesinə qoşulmağa şərait yaradır. "EdX" video, oyun laboratoriyası və 3D virtual molekul qurucusu kimi vasitələrdən istifadə edir. Bu platforma inkişafetdiricilərə qiymətləndirmə modulları yaratmağa və paylaşmağa imkan verən açıq mənbəlidir.

Konfransda açılış nitqi ilə çıxış edən Gömrük Akademiyasının rəisi Qulu Novruzov vurğulayıb ki, Akademiya Azərbaycan ali təhsil müəssisələri, həmçinin Ümumdünya Gömrük Təşkilatına üzv dövlətlərin milli gömrük təlimi qurumları və Regional Təlim Mərkəzləri arasında "edX" ilə əməkdaşlıq edən ilk və yeganə təşkilatdır.

Akademiyanın "edX" ilə qurulmuş tərəfdaşlığı tələbələrlə yanaşı, gömrük xidməti əməkdaşlarına da beynəlxalq onlayn tədris prosesində istifadə olunan çoxsaylı kurslardan faydalanmaq imkanı yaradır.

Bu imkanlardan istifadə edən gömrük xidməti əməkdaşları blokçeyn texnologiyaları, bitkoin, kriptovalyutalar, data bilikləri, əqli mülkiyyət hüququ, müqavilə hüququ, psixologiya, innovasiya, liderlik və digər sahələr üzrə onlayn kursları uğurla tamamlayaraq müvafiq 41 sertifikatı əldə ediblər.

DGK Katibliyinin rəisi Anar Süleymanov qeyd edib ki, müxtəlif qurumlarda pandemiya və dəyişkən şərtlər kontekstində insan resurslarının inkişafı və gömrük sektoru islahatlarının dəstəklənməsi üçün kadr potensialının gücləndirilməsi baxımından "edX" ilə əməkdaşlıq əhəmiyyətli addımdır. ÜGT-nin gömrük islahatları sahəsində üç əsas prinsipi olan sahiblik, hesabatlıq və gücləndirməni qeyd edən Anar Süleymanov bu kimi təşəbbüslərin həmin prinsiplərin icrasını da dəstəklədiyini vurğulayıb.

Tədbirdə 2020-ci ilin iyulundan indiyədək "edX" vasitəsilə müxtəlif nüfuzlu universitetlərin kurslarını tamamlayaraq sertifikatlar əldə etmiş Azərbaycan gömrük orqanlarının əməkdaşları "edX" kursları ilə bağlı rəylərini bildiriblər.

Konfransa ABŞ-dan qoşulmuş "edX"nin Qlobal Biznesin İnkişafı üzrə rəhbəri Con Şvarts deyib ki, "edX" 2012-ci ildə Harvard və Massaçusets Texnologiya İnstitutu tərəfindən yaradılıb və dünyada həm qeyri-kommersiya, həm də açıq mənbəli yeganə MOOC (kütləvi, açıq və onlayn kurslar) müəssisəsidir. O, əməkdaşlıq çərçivəsində əldə olunan və gələcəkdə əldə olunacaq nailiyyətlərin gömrük sektorunda kadr potensialının daha da inkişaf etməsini dəstəkləyəcəyinə inandığını, Gömrük Akademiyası ilə uğurlu əməkdaşlıq nümunəsi əsasında Azərbaycanın digər ali təhsil müəssisələri ilə də əməkdaşlığa hazır olduğunu bildirib.

Akademiyanın beynəlxalq əməkdaşlıq koordinatoru və "edX" ilə tərəfdaşlıq layihəsinin koordinatoru Elvin Məcidov seçilmiş xarici qurumlarla "e-learning" əməkdaşlığın əhəmiyyəti və gələcək imkanlar haqqında danışıb.

Tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb.

Tvinninq layihəsinin idarəedici komitəsinin iclası keçirilib

Ötən həftə "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (YKTS) qoşulmaq prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə Dəstək" tvinninq layihəsinin idarəedici komitəsinin onlayn formatda 2-ci iclası keçirilib.

İclasda Dövlət Gömrük Komitəsi Katibliyinin rəisi və layihənin rəhbəri Anar Süleymanov və İtaliya tərəfindən layihə rəhbəri Giovanni Piccirillo açılış nitqi ilə çıxış ediblər.

Sonra rezident tvinninq məsləhətçisi, İtaliya Gömrük və İnhisar Agentliyinin nümayəndəsi Antonio Lo Parco layihənin 2-ci rübünü əhatə edən 2020-ci ilin sentyabr-dekabr ayları ərzində həyata keçirilmiş fəaliyyətlər üzrə təqdimatla çıxış edib.

Görüşdə layihənin icrası üzrə 2-ci rüblük hesabatlar, 3-cü rübdə həyata keçiriləcək tədbirlərlə əlaqədar iş planı müzakirə edilib və təsdiq olunub.

İclasda hər iki ölkədən layihə icra qrupunun üzvləri, Aİ-nin Azərbaycan üzrə nümayəndəliyi və İqtisadiyyat Nazirliyinin təmsilçiləri də iştirak ediblər.

Baş redaktor
N.S.AXUNDOV

«Gömrük xəbərləri»
ictimai-siyasi qəzet

Redaksiyanın ünvanı:
AZ 1007
Bakı şəhəri,
Koveroçkin küçəsi, 30a
Tel.: (012) 404 22 00

Kapital bankın 1 saylı
Nəsimi rayon filialı.
Hesab nömrəmiz 160233070000
kod 200112.
VÖEN 1300315681

LİSENZİYA:
Seriya AV №022325
Qeydiyyat
nömrəsi V 125

İndeks 0178